**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ AQRAR SAHİBKARLIĞIN FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 - Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Qafar Müşfiq oğlu Bağırov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Bakı Biznes Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri namizədi
**Aqil Abid oğlu Qurbanov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Anar Fazil oğlu Abbasov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Famil Vəli oğlu Rüstəmov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Ülvi Fərman oğlu Quliyev**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: Əməkdar kənd təsərrüfatı işçisi, iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlum olduğu kimi, qloballaşma prosesinin dərinləşməsi beynəlxalq iqtisadi münasibətlər sistemində yeni çağırışlar yaradır ki, bu da hər bir ölkənin iqtisadiyyatına və sosial həyatına əhəmiyyətli dərəcədə təsir göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər, xüsusən 30 ilə yaxın müddət ərzində Qarabağın işğal olunmuş ərazilərinin geri qaytarılması, həmin ərazilərin minalardan təmizlənmə və dinc quruculuq işlərinin həyata keçirilməsi ölkəmizin siyasi və iqtisadi suverenliyinin təmin edilməsində, ərazi bütövlüyünün bərpa edilməsində və milli maraqların qorunmasında əhəmiyyətli rol oynamışdır.

İşğaldan azad edilmiş ərazilərin (İAEƏ-in) iqtisadi potensialının ən mühüm tərkib hissəsini kənd təsərrüfatı və emal sənayesi, eləcə də turizm imkanları təşkil edir. İAEƏ-də sürətli məskunlaşma prosesinin və səmərəli məşğulluq prosesinin təmin edilməsinin ən mühüm istiqamətlərindən biri sahibkarlığın inkişaf etdirilməsi və kənd təsərrüfatında dayanıqlı tərəqqinin reallaşdırılmasına nail olunmasından ibarətdir.

Hazırda minalardan təmizlənən və bütövlükdə dinc quruculuq işləri həyata keçirilən ərazilərdə növbəti mərhələlərdə əhalinin qayıdışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu prosesin başlıca strateji xətti ilk növbədə həmin ərazilərin ölkə iqtisadiyyatına və eləcə də qloballaşan dünyada beynəlxalq münasibətlər sisteminə səmərəli şəkildə reinteqrasiya prosesinin gerçəkləşdirilməsidir. Bu prosesin səmərəli şəkildə təmin edilməsinin ən mühüm ilkin şərtlərindən biri kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinə nail olunması və istehsal edilən məhsulun rəqabətədavamlılığının yüksəldilməsidir. Əslində həmin ərazilərin kənd təsərrüfatının inkişafı üçün əlverişli olması həmin ərazilərdə rəqabətədavamlı məhsul istehsalının gerçəkləşdirilməsini şərtləndirir.

Rəqabətədavamlı məhsulların istehsal edilməsi və onların xarici bazarlara çıxarılması bütövlükdə Qarabağ brendi altında rəqabətqabiliyyətli məhsul istehsalı və onların xarici bazarlarda dayanıqlılığının təmin edilməsini şərtləndirir. Bütün bunlar isə

ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi ən mühüm prioritet istiqamətlərindən biri hesab edilir. İAEƏ-də sahibkarlığın inkişaf etdirilməsi həm iqtisadi, həm sosial və həm də ekoloji cəhətdən mühüm əhəmiyyət kəsb edir. Belə ki, həmin ərazilərdə kənd təsərrüfatı və emal sənayesinin inkişaf etdirilməsinin obyektiv zəruriliyi ilk növbədə əhalinin vərdişləri və eləcə də sahənin ixtisaslaşma istiqamətləri ilə sıx bağlıdır. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası regionlarının yeni bölgüsü formalaşdırılmışdır. Həmin bölgüdə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradılmış və ölkə Prezidenti tərəfindən həyata keçirilən iqtisadi siyasət tədbirləri çərçivəsində regionun davamlı inkişafının təmin edilməsinə istiqamətlənmiş tədbirlərin vektorları müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" qəbul edilmiş və həmin Yol Xəritəsində neftdən asılılığın azalması proqnozlaşdırılır. Qeyd edilir ki, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri tədbirlərin gerçəkləşdirilməsi məhz qeyri-neft sektorunun inkişafından bilavasitə asılıdır. Bu baxımdan İAEƏ-də kənd təsərrüfatı və emal sənayesinin inkişaf etdirilməsi, sahənin turizm imkanlarının gercəkləşdirilməsi və bu prosesdən səmərəli istifadə edilmə hesabına dövlət büdcəsinə daxilolmaların həcminin artırılması qarşıya qoyulan ən mühüm hədəflərdən biri hesab edilir.

Ölkə başçısının digər Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda öz əksini tapmış İAEƏ-ə "Böyük Qayıdış" Milli Prioritet kimi qəbul edilmiş və icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" hazırlanmışdır. Proqram İAEƏ-in mövcud potensialı, strateji inkişafı və beynəlxalq iqtisadi münasibətlər sistemində olan müasir çağırışlar nəzərə alınaraq hazırlanmışdır. İAEƏ-də aparılan quruculuq işlərinin mövcud vəziyyəti, perspektivdə qarşıya qoyulan məqsədlər və onların hədəf göstəriciləri, ərazilərdə gözlənilən risklər və onların

neytrallaşdırılması yolları, əhalinin böyük qayıdışı, həmçinin bərpa və quruculuq işlərinin maliyyələşmə mənbələri və gözlənilən nəticələr öz əksini tapmışdır.

Tədqiqat aparılan ərazilərdə kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsi ilk növbədə mühüm strateji əhəmiyyətilə seçilir. Bu strateji əhəmiyyətə əsas etibarilə iqtisadi və sosial aspektlər və mühüm siyasi məqsədlərin gerçəkləşdirilməsini də şamil etmək olar. Prosesin siyasi yönümü ilk növbədə bu ərazilərdə davamlı məşğulluğun və yaşayış imkanlarının genişləndirilməsi, həmin ərazilərin ölkə iqtisadiyyatına və beynəlxalq münasibətlər sisteminə səmərəli reinteqrasiyasının təmin edilməsilə bağlıdır. İAEƏ-də sahibkarlığın inkişaf etdirilməsinin iqtisadi aspektləri ilk növbədə iqtisadi cəhətdən daha çox gəlir əldə edən sahibkarlıq qurumlarının yaradılmasına dəstək verilməsi və eləcə də əhalinin gəlirlərinin artırılmasıdır. Araşdırılan ərazilərdə kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinin sosial aspektləri ilk növbədə məşğulluğun təmin edilməsi, əhalinin gəlirlərinin artırılması prosesində daha çox infrastruktur layihələrdən yararlanmaq imkanlarına nail olunması ilə sıx əlaqədardır. Məhz bütün bunlar bütövlükdə problemin aktuallığını şərtləndirən ən mühüm amillərdən hesab edilir. Göstərilənləri nəzərə alaraq vurğulamaq olar ki, İAEƏ-də aqrar sahibkarlığın formalaşdırılması istiqamətləri mövzusunda dissertasiya işi aktual bir problemin tətbiqinə həsr edilmişdir.

Qeyd etmək lazımdır ki, problemə elmi baxımdan yanaşdıqda aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsilə bağlı uzunmüddətli zaman ərzində çoxsaylı tədqiqat işləri, elmi əsərlər yaradılmış və elmi dövriyyəyə daxil edilmişdir. Lakin bütün bunlara baxmayaraq, 30 ilə yaxın dövrdə göstərilən ərazilərimizin ölkə iqtisadiyyatına reinteqrasiya edilməməsi, daha doğrusu, həmin ərazilərdə vandal erməni işğalçıları tərəfindən ərazilərin dağıdılması prosesləri həyata keçirilmişdir. Bütün bunlar nəinki həmin ərazilərdə elmi tədqiqatların aparılmasını, hətta iqtisadi və sosial islahatların gerçəkləşdirilməsi məsələlərini belə arxa plana çəkmişdir. Məhz bunları nəzərə alaraq, bütövlükdə İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsilə bağlı proseslər demək olar ki, yeni məzmun kəsb edir. Kənd təsərrüfatında sahibkarlığın inkişaf

etdirilməsi, zəruri reinteqrasiya münasibətlərinin formalaşdırılması, sahibkarlığın iqtisadi və sosial tərəflərilə bağlı ölkəmizin görkəmli iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, A.F.Musayev, V.H.Abbasov, G.Ə.Gənciyev, E.R.İbrahimov, E.A.Quliyev, İ.H.İbrahimov, İ.H.Alıyev, Ə.X.Nuriyev, B.X.Ataşov, A.F.Abbasov, A.H.Vəliyev, F.F.Fikrətzadə və başqaları, tanınmış xarici iqtisadi tədqiqatçılarından A.A.Şutkov, A.B.Qordeev, O.N.Kusakira, N.İ.Palsi, V.Q.Fedotova, İ.Q.Uşaçov, M.Q.Lapusta, T.Popçov, Y.V.Serova, A.V.Busnkin, V.V.Qrebnik, İ.S.Sepinqin, Y.A.Şumpeter, M.Veber və başqaları müxtəlif səpkidə tədqiqat işləri aparmışlar və bu yöndə önəmli tövsiyələr vermişlər. Lakin həmin alimlərin əsərlərində İAEƏ-də aqrar sahibkarlığın inkişaf etdirilməsi və mövcud potensialların dövriyyəyə cəlb edilməsi, sahibkarlığın formalaşdırılması problemlərinə, demək olar ki, baxılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri (İAEƏ) qəbul edilmişdir. Predmetini isə işğaldan azad edilmiş ərazilərdə (İAEƏ) kənd təsərrüfatı, emal sənayesi, burada sahibkarlığın formalaşması və inkişafı ilə bağlı üsul və vasitələr, həmçinin iqtisadi qanunauyğunluqlar təşkil etmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi İAEƏ-də aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsinin elmi, nəzəri aspektlərini araşdırmaqdan, İAEƏ-də sahibkarlığın inkişaf imkanlarını tədqiq etməkdən, mövcud ehtiyatları qiymətləndirməkdən, burada sahibkarlığın inkişaf etdirilməsinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı nəzəri və praktik əhəmiyyətli tövsiyələr hazırlamaqdan ibarətdir. Bu məqsədin icrası ilə bağlı aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- sahibkarlıq fəaliyyətinin formalaşması və sahibkarlıq mühitinin yaradılmasının əsaslarının müəyyən edilməsi;
- İAEƏ-də aqrar sahədə sahibkarlığın formalaşmasının spesifik xüsusiyyətlərinin tədqiq edilməsi;
- İAEƏ-də kənd təsərrüfatının rəqabət üstünlüklərini şərtləndirən amillərin müəyyənləşdirilməsi;
- İAEƏ-də aqrar sahibkarlığın formalaşdırılmasını şərtləndirən amillərin araşdırılması;

- İAEƏ-də torpaq və su ehtiyatlarından istifadə imkanlarının təhlil edilməsi;

- İAEƏ-də sahibkarlığın inkişafını şərtləndirən iqtisadi mexanizmlərinin işlənib hazırlanması;

- İAEƏ-də dayanıqlı məşğulluğun təmin edilməsi və infrastruktur sisteminin inkişaf istiqamətlərinin elmi cəhətdən əsaslandırılması;

- İAEƏ-də sahibkarlığın inkişaf prioritetlərinin və reinteqrasiya münasibətlərinin formalaşdırılması ilə bağlı yeni elmi yanaşmaların tətbiq edilməsi və təkliflərin hazırlanması.

**Tədqiqatın metodları.** Tədqiqat işi yerinə yetirilən zaman müşahidə, müqayisə, təhlil, analitik ümumiləşdirmə və digər iqtisadi-statistik metodlardan istifadə edilmişdir. Tədqiqat zamanı nəzəri-metodoloji yanaşmalar işlənərkən istiqamətverici mənbəə kimi aqrar sahədə sahibkarlığın idarə edilməsi, formalaşdırılması mexanizmlərinə dair yerli və xarici ölkə alimlərinin əsərlərindən, Azərbaycanda aqrar sahənin inkişafına dair qanunlardan, müxtəlif normativ-hüquqi sənədlərdən və elmi-tədqiqat institutlarının materiallarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

- İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı əlverişli mühitinin yaradılması 1995-ci illərdə respublikada həyata keçirilən aqrar islahatların özünəməxsus müsbət və mənfi cəhətlərinin nəzərə alınması şərti ilə həyata keçirilməsi zərurəti yaranmışdır;

- İAEƏ-dən kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsilə bağlı tədbirlərin müəyyən edilməsi, qloballaşma prosesinin doğurduğu destruktiv təsirlərin səmərəli şəkildə neytrallaşdırılmasına istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi ön plana çəkilməli və sahibkarlığın formalaşması xüsusiyyətləri nəzərə alınmalıdır;

- İAEƏ-də kənd təsərrüfatında sahibkarlıq qurumlarının yaradılması və aqrar islahatların aparılması zamanı torpaqların xırda həcmlərdə istehsalçılara verilməsilə bağlı təcrübə qiymətləndirilməli və bu prosesin doğurduğu təhdidlərin müəyyənləşdirilməsinə ehtiyac vardır;

- İAEƏ-də aqrar sahədə sahibkarlığın və bütövlükdə kənd təsərrüfatında dayanıqlı inkişafın təmin edilməsi ilə bağlı prosesləri reallaşdırarkən həmin ərazilərin ölkə iqtisadiyyatında əhəmiyyəti nəzərə alınmaqla, ölkənin kənd təsərrüfatı məhsulları istehsalının strukturunda yeri və rolu təsbit olunmalıdır;

- İAEƏ-də kənd təsərrüfatının inkişaf etdirilməsi üçün torpaq və su ehtiyatlarından istifadə, eləcə də emal sənayesinin və turizm potensialının hərəkətə gətirilməsinin qeyri-neft sektorunun inkişafına təsirinin qiymətləndirilməsi zəruri şərtlərdən biri kimi həll edilməlidir;

- İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişafının müsbət və mənfi tərəfləri müəyyənləşdilməli, GZİT təhlil aparılmalı və müstəsna əhəmiyyətə malik məsələ kimi qiymətləndirilməlidir;

- İAEƏ-də aqrar sahibkarlığın inkişaf etdirilməsi üçün reinteqrasiya münasibətlərinin inkişaf etdirilməsi və sahibkarlığın inkişaf prioritetləri müəyyən edilməlidir;

- İAEƏ-də infrastruktur sisteminin inkişaf etdirilməsi davamlı məskunlaşma və məşğulluğun təmin edilməsinin ən mühüm istiqamətlərindən biri olduğundan bu sahədə zəruri təşkilati və iqtisadi mexanizmlərin yaradılmasına ehtiyac duyulur.

- İAEƏ-də sahibkarlığın inkişaf etdirilməsinin ən mühüm istiqamətlərindən biri kimi maliyyə resurslarına olan tələbatın ödənilməsi, eləcə də iqtisadi mexanizmlərin təkmil xarakter daşıması vacib şərtlərdən biridir. Bu baxımdan regionlarda, xüsusən İAEƏ-də subsidiyaların formalaşdırılması, eləcə də investisiya mexanizmlərinin formalaşdırılması müstəsna əhəmiyyət kəsb edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyinə aşağdakılar şamil edilir:

- İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinin mühüm strateji əhəmiyyəti, eləcə də onun iqtisadi və sosial üstünlükləri müəyyən edilmişdir;

- İAEƏ-də aqrar sahibkarlığın inkişaf etdirilməsinin müsbət cəhətləri və bu sahədə olan problemlər və təhdidlər müəyyənləşdirilmiş, təsnifləşdirilmiş, bu prosesin mühüm əhəmiyyət kəsb etməsi elmi cəhətdən əsaslandırılmışdır;

- İAEƏ-də aqrar islahatların aparılması ilə bağlı təcrübələr nəzərə alınmaqla innovativ istiqamətlər, eləcə də iri və orta əmtəəlik təsərrüfatlarının yaradılmasının rəqabət üstünlükləri üzə çıxarılmışdır;
- İAEƏ-də infrastruktur sisteminin mərhələli inkişaf etdirilməsinin zəruriliyi və mühüm istiqamətləri müəyyənləşdirilmişdir;
- İAEƏ-də torpaq və su ehtiyatlarından, həmçinin yaşıl enerji mənbələrindən (su və külək enerjisindən) istifadə edilməsi, alternativ enerji mənbələrindən istifadəyə diqqət yetirilməsi istiqamətləri araşdırılmışdır;
- İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinin iqtisadi mexanizmlərində digər ərazilərlə müqayisədə daha çox diferensiallaşma tədbirlərinə üstünlük verilməsi təklif edilmişdir;
- İAEƏ-də əhalinin məşğulluğunun səmərəli təmin edilməsində və dayanıqlı məskunlaşma proseslərinin səmərəli təşkili məqsədilə kənd təsərrüfatında sahibkarlığın əsas inkişaf istiqamətləri tədqiq edilmişdir;
- İAEƏ-də kənd təsərrüfatında səmərəli reinteqrasiya münasibətlərinin inkişafının prioritetləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri müddəaları, nəticələri və irəli sürülən təklif və tövsiyələr İAEƏ-də sahibkarlığın inkişaf etdirilməsinə, kənd təsərrüfatında dayanıqlı məşğulluğun təmin edilməsinə və məskunlaşma prosesinin gerçəkləşdirilməsində əhəmiyyətli rol oynamaqla bu sahədə gələcək tədqiqatların zənginləşdirilməsində istifadə edilə bilər.

Tədqiqatın praktik əhəmiyyətini səciyyələndirən ən mühüm amillərdən biri təklif və tövsiyələrin yaxın gələcəkdə bu istiqamətdə növbəti dövlət proqramlarının hazırlanmasında və bütövlükdə azad edilmiş ərazilərdə davamlı məskunlaşma və sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı layihələrin hazırlanmasında və reallaşdırılmasında istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 6 məqalədə (1-i xaricdə olmaqla) və 5 tezisdə (3-ü xaricdə olmaqla) öz əksini

tapmışdır. Konfrans materialları sırasında “Formation of agrarian entrepreneurship in the liberated territories of Azerbaijan” (Polşa, 2021), “İşğaldan azad edilmiş ərazilərdə aqrar sahibkarlığın formalaşdırılması” (Bakı, 2021), “Territories liberated from occupation of Azerbaijan: strengths, weaknesses, threats and opportunities” (Toronto, 2023) adlı tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin “Müasir şəraitdə sahibkarlıq fəaliyyətinin inkişafının bəzi məsələləri” (Bakı, 2021), “Formation of the food industry in the liberated territories of Azerbaijan” (Москва, 2022), “İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun yaradılması istiqamətləri” (Bakı, 2022), “Post-konflikt dövründə ərazilərdə iqtisadiyyatın bərpasının və inkişafının bəzi istiqamətləri” (Bakı, 2023) adlı məqalələri dərc olunmuşdur.

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Biznes Universiteti.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi girişdən, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (14525 işarə), I fəsil (64337 işarə), II fəsil (65958 işarə), III fəsil (88053 işarə), nəticə (12797 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (16480 işarə) üzrə ümumi həcm 273923 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, sxemlər, istifadə olunmuş ədəbiyyat siyahısı və ixtisarların siyahısı istisna olmaqla 246670 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin “**Girişində”** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, müdafyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiya işinin **“Azərbaycanın aqrar bölməsində sahibkarlığın formalaşdırılmasının nəzəri-metodoloji əsasları” adlı I fəslində** sahibkarlıq fəaliyyətinin formalaşması və mühitinin yaradılması prinsipləri, aqrar sahədə sahibkarlığın fomalaşması xüsusiyyətləri, İAEƏ-də kənd təsərrüfatının müqayisəli üstünlüklərini şərtləndirən amillər tədqiq olunur.

Qeyd edilir ki, sahibkarlıq fəaliyyətinin inkişafı bazar iqtisadiyyatının inkişafının mühüm hərəkətverici qüvvəsi olub torpaq, kapital, texnoloji, əmək resurslarından səmərəli istifadəni özündə əks etdirməklə gəlir əldə edilməsinə istiqamətlənmiş təşəbbüskarlığa əsaslanan təsərrüfat fəaliyyətidir.

Sahibkarlıq fəaliyyəti iqtisadi artımın və dayanıqlı inkişafın formalaşmasına xidmət etməklə cəmiyyətin yaşam ehtiyaclarının qarşılanmasında da önəmli rola malikdir. Bu arqumenti əsas götürməklə hesab etmək olar ki, müasir cəmiyyətdə sahibkarlıq fəaliyyəti həm iqtisadi və həm də sosial məzmun daşıyır.

Cəmiyyətdə baş verən dəyişikliklər məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafı sahibkarlıq fəaliyyətinin də inkişafında zəruri keyfiyyət dəyişikliyinin baş verməsinə gətirib çıxarsada iqtisadi azadlıqlar könüllülük, müstəqil qərar qəbul etmə və gəlirlərin müstəqil şəkildə bölüşdürülməsi və s. məsələlərdə sahibkarlıq fəaliyyəti öz klassik postulatlarından kənarlaşmamışdır. Əlverişli mühitin formalaşdırılması təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsinə bilavasitə təsir etməklə maksimum mənfəət əldə edilməsinə xidmət edir. Əlverişli sahibkarlıq mühiti sahibkarlığın inkişafı ilə bağlı zəruri hüquqi-normativ aktların qəbul edilməsini, iqtisadi şəraitin yaradılmasını, infrasturuktur sisteminin təkmilləşdirilməsini və ən nəhayət dövlətin iqtisadi siyasətinin sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinə adekvat olmasını nəzərdə tutur. Dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin xüsusən də, İAEƏ-də stimullaşdırılmasına istiqamətlənmiş iqtisadi siyasət mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinin güzəştli şərtlərlə kreditləşdirilməsini, vergi dərəcələrinin iqtisadi artımın yüksəldilməsinə xidmət etməsini, büdcə siyasətinin dotasiyalar və subsidiyalar vasitəsilə sahibkarlıq qurumlarının müflisləşməsinin qarşısının alınmasına yönəldilməsini və.s nəzərdə tutur. Dünyanın inkişaf etmiş ölkələrində sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi əvlerişli sahibkarlıq mühiti yaratmaqla iqtisadiyyatda mühüm strateji əhəmiyyətli hədəflərə, iqtisadi artımın təmin edilməsinə, dövlət büdcəsinə alternativ mənbələrdən vergi daxil olmalarının həcminin artmasına, iqtisadiyyatın şaxələndirilməsinə, iqtisadi təhlükəsizliyin təmin edilməsinə xidmət edir. Tədqiqat nəticəsində əlverişli

sahibkarlıq mühitinin formalaşdırılmasının prinsipləri və hədəfləri Sxem 1-dəki kimi göstərilməsi təklif edilir.




**Sxem 1. Sahibkarlıq mühitinin prinsipləri və hədəfləri**
*Mənbə: sxem müəllif tərəfindən tərtib edilmişdir.*

Elmi-nəzəri baxımdan yanaşdıqda əlverişli sahibkarlıq mühitinin yaradılmasının daxili və xarici mühit amilləri mövcuddur ki, bu amillərin yaratdığı imkanlar hesabına sahibkarlıq subyektlərinin maliyyə nəticələrini yaxşılaşdırmaq mümkündür. Sahibkarlıq fəaliyyətinin daxili və xarici mühit amilləri sxem 2-də göstərilmişdir.

Müəllif İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın formalaşmasının GZİT təhlilini vermiş, ərazilərin özünəməxsus xüsusiyyətlərinin nəzərə alınmasını elmi cəhətdən məqbul hesab edir.

Tədqiqat nəticəsində İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişafının GZİT təhlili nəticələrinin elmi-təcrübi baxımdan istifadə edilməsi faydalı ola bilər.




**Sxem 2. Sahibkarlıq fəaliyyətinin daxili və xarici mühit amilləri**

*Mənbə: sxem müəllif tərəfindən tərtib edilmişdir.*

Fikrimizcə, aparılmış GİZT təhlilinə əsasən ərazidə sahibkarlığın formalaşdırılması İAEƏ-də təhdid doğuran amillərin neytrallaşdırılması, sahibkarlığın inkişafının zəif tərəflərinin aradan qaldırılması, bütövlükdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə və sahənin rəqabətə davamlılığının möhkəmləndirilməsinə imkan verə bilər. Bu, aqrar emal sənayesində idxalın əvəz edilməsinə nail olunmasına və sahənin ixrac yönümlülüyünün yüksəldilməsinə əlverişli şərait yarada bilər.

Dissertasiya əsaslandırılır ki, İAEƏ-in iqtisadi potensialının yüksək olması xüsusilə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı baxımından mühüm rəqabət üstünlükləri vəd edir. Tədqiqat nəticəsində müəyyən edilir ki, ölkəmizdə son dövrlərdə ixrac

dəyərində böyük paya malik olan kənd təsərrüfatı və ərzaq məhsulları üzrə kifayət qədər yüksək aşkar rəqabət üstünlükləri mövcuddur. Bu məhsullara xurma, fındıq, pomidor, gilas, pambıq lifi və ipliyi, nar şirəsi, alma və s. aiddir. Ən böyük rəqabət üstünlükləri xurma və fındıq üzrə qeydə alınmışdır. Bu məhsullar üzrə rəqabət üstünlüklərin belə yüksək olması ölkədə o cümlədən İAEƏ-də bu məhsulların becərilməsi üçün təbii-iqlim şəraitinin əlverişliliyi və nəticə etibarilə isə seçilən məhsulların ölkə üzrə ixracının məhsulların qlobal ixracındakı paylarının böyüklüyü ilə bağlıdır. Tədqiqat göstərir ki, 2021-ci ildə Azərbaycan dünya bazarına xurma ixracındakı payı 13%-dən 20%-ə yüksəlmiş və Çini geridə qoyaraq dünyanın ikinci xurma ixracatçısı mövqeyində dayanmışdır. Qabığı təmizlənmiş meşə fındığı ixracının isə 4,4%-i Azərbaycanın payına düşür. İAEƏ-də kənd təsərrüfatının özünəməxsus müqayisəli üstünlükləri mövcuddur. Şərqi Zəngəzur iqtisadi rayonunda sahibkarlıq təsərrüfatlarının yaradılması xüsusilə arıçılığın eləcə də heyvandarlığın inkişaf etdirilməsinin özünəməxsus rəqabət üstünlükləri yarana bilər.

İAEƏ-də kənd təsərrüfatının rəqabət üstünlükləri araşdırılarkən qeyd edilir ki, tarixən Laçın və Kəlbəcərdə forel balıqçılığının formalaşdırılması ilə bağlı ənənələr mövcuddur. Balıqçılığın inkişaf etdirilməsi baxımından müəllif adı çəkilən balıq sortunun rəqabət üstünlüklərini dünya bazarında reallaşdırmağı mümkün hesab edilir. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçın və Kəlbəcərdə, habelə Qubadlı və Zəngilanda kifayət qədər mineral su ehtiyatları mövcuddur. Bu sahələrə investisiya qoyuluşu hesabına mineral suların dünya bazarına çıxarılması mümkündür və bütün bunlar özünəməxsus rəqabət üstünlüklər doğura bilər.

Dissertasiya işinin **“İAEƏ-də aqrar sahibkarlığın iqtisadi imkanlarının qiymətləndirilməsi” adlanan II fəsildə** islahatlar və aqrar sahibkarlığın inkişafını şərtləndirən amillər, İAEƏ-də torpaq və su resurslarının təhlilindən bəhs edilir.

1995-ci ildən etibarən ölkəmizdə aqrar islahatların təkmil hüquqi bazasının formalaşdırılması istiqamətində zəruri tədbirlər gerçəkləşdirildi. Torpaqların ərazilərdə yaşayan insanlar arasında bərabər şəkildə bölüşdürülməsi təmin edildi. Doğrudur, bu proses

aqrar islahatların həyata keçirilməsində sosial ədalət prinsipinin təmin edilməsilə nəticələndi. Əhalinin sıxlığı və kənd təsərrüfatına yararlı torpaqların həcmi ilə əlaqədar əhalinin hər nəfərinə 1.5 ha, bəzən 2-3 ha həcmində torpaq sahəsi düşdü. Torpaq paylarının az olması kənd təsərrüfatında növbəli əkin sisteminin tətbiqini əngəlləməklə sahənin iqtisadi dayanıqlığına mənfi təsir göstərdi.

Qeyd edilir ki, bütün bunları nəzərə alaraq İAEƏ-də aqrar islahatların həyata keçirilməsi sahibkarlığın inkişaf etdirilməsi zamanı ölkəmizdəki mövcud təcrübə nəzərə alınmalı, kooperativlərin, iri və orta həcmli təsərrüfatların yaradılmasına da üstünlük verilməlidir. Nəzərə almaq lazımdır ki, İAEƏ-də iri və orta həcmli kooperativlərin təsərrüfatların yaradılması torpaqların kiçik hissələrə bölünməsinin qarşısının alınmasına imkan verməklə kənd təsərrüfatının natural, kustar, ailə ehtiyaclarını qarşılayan sistemdən kənarlaşmasına və bütövlükdə aqrar sahənin ixrac yönümlülüyünün yüksəldilməsinə gətirib çıxara bilər.

İAEƏ-də kənd təsərrüfatı məhsullarının istehsal imkanlarını qiymətləndirərkən tədqiqat predmeti kimi 1985-ci il üzrə Qarabağ iqtisadi rayonunun əkin sahəsinin strukturu araşdırılır. Araşdırmalar göstərir ki, işğal nəticəsində 900 min hektar sahə, o cümlədən 140 min hektar əkin istifadəsiz qalmışdı. Ötən əsrin 85-ci ilində bütövlükdə hazırkı Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunun 282.6 min hektar torpaq sahəsi əkin dövriyyəsinə cəlb edilmişdir. Bu əkin sahəsinin 107 min hektarı taxıl və paxlalı bitkilər, 8165 min hektarı pambıq, 1889 min hektarı tütün, 5230 min hektarı kartof və tərəvəz məhsullarının, 2435 min hektarı meyvə-giləmeyvə, 80016 min hektar isə üzüm altında becərilmişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları əkin sahəsi bütövlükdə ölkə üzrə mövcud əkin sahəsinin 20.6%-ni, taxıl və paxlalı bitkilər altında olan sahələr ölkə üzrə cəmi taxıl və paxlalı bitkilər altında olan sahələrinin 21.6%-ni, pambıq 2,7%-ni, tütün 1,6%-ni, kartof və tərəvəz bağçılıq məhsulları üzrə əkin sahələri ölkə üzrə kartof və tərəvəz bağçılıq məhsulları üzrə 7.4%-ni, meyvə və giləmeyvə 1,8%-ni, üzüm 31.6%-ni təşkil etmişdir. Ötən əsrin 85-ci ilində üzümlüklər əsas etibarilə Ağdam rayonunda və Füzuli rayonunda daha yüksək həcm təşkil etmişdir. Belə ki, Ağdamda 17579 hektar, Füzulidə isə 17437 hektar üzüm əkin sahəsi mövcud

olmuşdur. Qeyd edilən ildə Füzuli rayonunda 10.3 hektar, Ağdam rayonunda isə 7.3 hektar, Cəbrayıl rayonunda 8.1 hektar torpaq taxıl və paxlalı bitkilər altına becərilmişdir. Hazırkı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı cədvəl 1-də göstərilmişdir.

**Cədvəl 1.**

**Azərbaycanın işğal olunmuş keçmiş DQMV və ətraf rayonlarında kənd təsərrüfatı məhsulları istehsalı haqqında məlumat (1988-ci il) (min ton)[1]**

| İAEƏ | Bitkiçilik məhsulları | | | | Heyvandarlıq məhsulları | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Taxıl | Pambıq | Üzüm | Kartof | Ət | Süd | Yumurta (min əd.) | Yun (ton) | Barama (ton) |
| DQMV | 100,0 | - | 71,8 | 2765 | 10,2 | 36,5 | 11,1 | 477 | 89,0 |
| Laçın | 3,0 | - | - | 46,0 | 2,0 | 4,1 | - | 198 | - |
| Kəlbəcər | 1,0 | - | - | - | 1,0 | 3,1 | - | 86 | - |
| Ağdam | 30,1 | 19,0 | 1,2 | 5,0 | 2,7 | 12,6 | 2,3 | 297 | 379 |
| Füzuli | 31,9 | 1,5 | 100,1 | - | 1,5 | 6,8 | 1,1 | 128 | - |
| Cəbrayıl | 20,1 | - | 42,0 | 13,0 | 1,4 | 6,6 | - | 130 | 282 |
| Qubadlı | 6,7 | - | 2,9 | 55,0 | 0,6 | 3,3 | - | - | 14,4 |
| Zəngilan | 4,6 | - | 16,3 | 64, | 0 | 2,5 | - | 20 | 82,0 |
| cəmi: | 179,4 | 20,5 | 324,3 | 2348 | 20,0 | 75,5 | 14,5 | 1360 | 846,4 |
| AR %-lə | 14,3 | 3,3 | 31,5 | 6,3 | 14,5 | 17,1 | 3,6 | 19,3 | 17,0 |

Cədvəldən göründüyü kimi, ötən əsrin 88-ci ilində bütövlükdə hazırki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 179,4 min ton taxıl istehsal edilmişdir ki, bu da ölkə üzrə cəmi taxıl istehsalının 14,3%-ni təşkil etmişdir. Həmin dövrdəki Qarabağ və ona bitişik rayonlarda pambıq istehsalının həcmi 20,5 min ton təşkil etmişdir. Bu isə ümumi pambıq istehsalının 3,3%-ni, 2348 min ton kartof istehsal edilmişdir ki, bu da ölkə üzrə kartof istehsalının 6,3%-ni, 324,3 min ton üzüm istehsal edilmişdir ki, bu da ölkə üzrə istehsal edilən cəmi üzüm istehsalının 31,5%-ni özündə əks etdirir. Bütün bunlardan belə qənaətə gəlmək olar ki, həmin dövrdə bütövlükdə hazırkı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları bütövlükdə həmin dövr üçün kifayət qədər yüksək göstəricidir.

[1] Ermənistan-Azərbaycan münaqişəsi. Bakı, 2005, 390 s.

Nəzərə almaq lazımdır ki, hazırda yüksək inkişaf texnologiyalarından istifadə etməklə bu istehsal göstəricilərini daha da yaxşılaşdırmaq mümkündür. Bütün bunlar son nəticədə ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsinə əlverişli şərait yarada bilər.

İAEƏ-in iqtisadi potensialını qiymətləndirərkən qeyd etməliyik ki, Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında tütünçülüyün, Ağdam və Füzuli rayonlarında üzümçülüyün, taxılçılığın və tərəvəzçiliyin inkişaf etdirilməsi üçün imkanlar vardır. İAEƏ-in xeyli hissəsinin dağlıq və dağətəyi ərazilərə malik olmasının nəticəsidir ki, bu da həmin ərazilərin 3500 metr dəniz səviyyəsindən hündürlükdə yerləşməklə bütövlükdə isə həmin ərazilər demək olar ki, torpaq ehtiyatlarına malik deyildir. Həmin ərazilərin meşə massivlərinə malik olması, eləcə də dağətəyi ərazilərin daha çox sahəyə malik olması mahiyyət etibarilə həmin ərazilərdə heyvandarlıqda sahibkarlıq təsərrüfatlarının inkişaf etdirilməsi üçün potensial imkanlar yaradır. Uzun müddət işğal altında olunmuş torpaqlar əvvəllər kənd təsərrüfatında geniş istifadə olunurdu və onlar özünün keyfiyyət xüsusiyyətləri ilə respublikanın digər ərazilərinin torpaqlarından fərqlənirlər. Müəyyən edilmişdir ki, respublikada birinci qeydiyyat qrupuna (yüksək keyfiyyətli torpaqlara) daxil olan torpaqların ən çoxu 17%-ə qədəri, ikinci keyfiyyət qrupuna (yaxşı keyfiyyətli torpaqlara) daxil olan torpaqların 24%-dən çoxu işğal altında olmuş Yuxarı Qarabağ iqtisadi rayonu ərazisində yayılmışdır. İAEƏ-də kənd təsərrüfatına yararlı torpaqların 71,8%-i, 1-ci və 2-ci keyfiyyət qrupuna aid olan yüksək və yaxşı keyfiyyətli torpaqlardır. Ərazilərdə 3-cü qrupa aid orta keyfiyyətli torpaqlar 24%, 4-cü qrupa aid aşağı keyfiyyətli torpaqlar isə 4%, 5-ci qrupa aid şərti yararsız torpaqlar isə cəmi 0,2% təşkil edir. Orta və aşağı keyfiyyətli torpaqların əksəriyyəti daha doğrusu 16 %-i örüş otlaq sahələrinin torpaqlarından ibarətdir. İşğal altında olunmuş torpaqların keyfiyyət göstəriciləri üzrə vəziyyəti respublikanın digər iqtisadi regionları ilə müqayisədə çox yüksəkdir.[2]

---

[2] Vəliyev A.H., Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi iqtisadi aspektləri, Bakı, Avropa, 2019, 386 s.

**Cədvəl 2.**

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əkinəyararlı torpaq sahələrinin strukturu, faizlə 1985-ci il[3]**

| | K/t yararlı torpaq sahələri və əhalinin istifadə etdiyi torpaq sahələri | Yararlı torpaq sahələri (əhalinin torpaq sahələri daxil olmadan) | Əkin | Çoxillik əkmələr | Biçənəklər | Otlaqlar | Ehtiyat torpaq sahələri |
|---|---|---|---|---|---|---|---|
| **Azərbaycan** | **100** | **97.5** | **33.8** | **8.8** | **2.4** | **50.4** | **1.8** |
| **İşğaldan azad edilmiş ərazilər üzrə** | | | | | | | |
| **DQMV** | 100 | 98.6 | 33.3 | 9.6 | 1.7 | 53.7 | 0.1 |
| **Ağdam** | 100 | 97.3 | 291 | 20.5 | 0.2 | 46.4 | 1.0 |
| **Füzuli** | 100 | 98.3 | 28.9 | 22.7 | 0.9 | 45.5 | 0.1 |
| **Cəbrayıl** | 100 | 98.7 | 29.5 | 16.7 | 0.07 | 50.9 | 1.4 |
| **Zəngilan** | 100 | 98.9 | 18.8 | 14.1 | 0.7 | 65.0 | 0.1 |
| **Kəlbəcər** | 100 | 98.5 | 8.2 | 0.009 | 14.0 | 71.6 | 4.6 |
| **Qubadlı** | 100 | 98.8 | 37.7 | 8.2 | 1.8 | 511 | 0 |
| **Laçın** | 100 | 99.0 | 15.1 | 0.3 | 6.3 | 73.6 | 3.4 |
| **Qarabağ iqtisadi rayonu** | | | | | | | |
| **Ağcabədi** | 100 | 98.1 | 60.8 | 2.1 | -- | 35.1 | -- |
| **Bərdə** | 100 | 97.3 | 50.5 | 1.7 | 0.1 | 44.6 | 0.1 |
| **Tərtər** | 100 | 96.4 | 65.6 | 6.8 | 0.1 | 23.3 | 0.4 |

Cədvəl 2-də göstərilir ki, adı çəkilən regionlarda əkinə yararlı torpaq sahələri ilə əkin sahələrini müqayisəsində rayonların xüsusi çəkisi müxtəlifdir. Ümumi olaraq Azərbaycan üzrə əkin sahələri 33.8% təşkil etdiyi halda Ağcabədidə bu rəqəm 60.8%, Tərtərdə 65.6% olduğu halda Kələbəcər və Laçında müvafiq olaraq 8.2% və 15.1% təşkil etmişdir.

Otlaq sahələrinə baxdıqda bu rəqəmlər kəskin fərqlə dəyişir. Kələbəcər və Laçında 71.6% və 73.6% olduğu halda, Ağcabədi və Tərtərdə müvafiq olaraq 35.1% və 23.3% təşkil edir.

---

[3] Səmədzadə Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə. V cild, Bakı 2022, 856 s

Göstəricilərdən belə qənaətə gələ bilərik ki, işğaldan sonrakı dövrdə aqrar sahibkarlığın formalaşdırılması istiqamətində işğaldan öncəki dövrün müsbət cəhətlərini götürərək, rayonların ixtisaslaşma xüsusiyyətləri nəzərə alınmalı, ölkəmizdə qazanılmış təcrübəyə əsaslanmalıyıq.

Davamlı və dayanıqlı məskunlaşma, İAEƏ-də infrastruktur sisteminin yenidən qurulmasında işlərinin əlaqəli formada aparılması, qeyd edilən ərazilərin ümumi iqtisadiyyata reinteqrasiya edilməsi və dövlət-özəl tərəfdaşlığının formalaşdırılması, sahibkarlar

və investorlar üçün əlverişli mühitinin yaradılması, iqtisadi artıma əsaslanan və qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində ölkə başçısı tərəfindən 16 noyabr 2022-ci il tarixində Böyük Qayıdışa dair I Dövlət Proqramı təsdiq edilməsi haqqında Sərəncam imzalanmışdır. Sərancamla müəyyən edilmişdir ki, İAEƏ-ə Böyük Qayıdış ölkəmizin 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyənləşdirilir. Proqramda İAEƏ-ə Böyük Qayıdışa əsaslanan iki strateji istiqamət öz əksinin tapmışdır:

1. Əhalinin dayanıqlı məskunlaşması;
2. Ərazilərdə iqtisadi fəaliyyətə reinteqrasiya.

Qeyd edilən strateji istiqamətlərə nail olmaq üçün 15 məqsəd və 4 hədəf göstərici müəyyən edilmişdir.[4]

Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, 30 ilə yaxın müddət ərzində işğal altında qalmış hazırki Şərqi Zəngəzur və Qarabağ İqtisadi rayonlarında su resursları da kimyəvi, fiziki və bioloji vasitələrlə çirklənməyə məruz qalmışdır ki, bu da regionda ekoloji tarazlığın pozulmasına gətirib çıxarmışdır. İAEƏ-də 14 çay və 9 su anbarı yerləşir. Qarabağın su ehtiyatlarının ümumi həcmi 2064,1 milyon $m^3$ təşkil edir. İAEƏ-də su ehtiyatlarından səmərəli istifadə edilməsi ərazilərin və həm də qonşu rayonların 150-250 min hektardan çox əkin sahələrinin suvarılmasına və su təminatının yaxşılaşdırılmasına imkan verə bilər. Qeyd edilir ki, İAEƏ-in su resurslarından optimal və səmərəli şəkildə istifadə imkanlarının təmin edilməsi məqsədilə ilk növbədə avtomatik idarəetmə

[4] "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair I Dövlət Proqramı" AR Prezidentinin fərmanı. Bakı 16.11.2022

vasitələrindən istifadə edilməsi nəticə etibarilə suya qənaət edilməsinə əlverişli şərait yarada bilər. Bundan əlavə İAEƏ-də su resurslarının təbii bərpa olunma imkanları daha genişdir və bu da ilk növbədə Şərqi Zəngəzur iqtisadi rayonunda dağlıq massivlərin çox olması ilə əlaqəlidir. Bütün bunlar isə son nəticədə qlobal iqlim dəyişikliklərinin doğurduğu qlobal təhdidlərin səmərəli şəkildə neytrallaşdırılmasında əhəmiyyətli rol oynaya bilər. Bütün bunlar həmdə İAEƏ-də yeni təsərrüfat formalarının yaradılmasına əlverişli şərait yarada bilər.

Dissertasiya işinin **“İAEƏ-də aqrar sahibkarlığın inkişafının prioritetləri” adlanan III fəslində** - İAEƏ-də aqrar sahibkarlığın inkişafının iqtisadi amilləri, İAEƏ-də dayanıqlı məskunlaşma və infrastruktur təminatının formalaşdırılması, İAEƏ-də inteqrasiya prosesinin formalaşması istiqamətləri və sahibkarlığn inkişaf prioritetləri tədqiq edilir.

Qeyd etmək lazımdır ki, İAEƏ-də kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişafı ilə bağlı iqtisadi amillər stimullaşdırıcı xarakter daşımalı və bu zaman istehsalın ixtisaslaşma məsələləri ön plana çəkilməlidir. Bundan əlavə İAEƏ-də iqtisadi mexanizmlər, xüsusən maliyyə, kredit, vergi, investisiya və s. torpaqların melioriasiyası, suvarma sistemlərin bərpası infrastruktur sistemlərinin formalaşdırılması məqsədli Dövlət Proqramları çərçivəsində reallaşdırılmalıdır. Qeyd edilir ki, İAEƏ-də kənd təsərrüfataında sahibkarılığın inkişafı ilk növbədə həmin ərazilərdə bərpa işlərinin aparılmasından başlanılmalıdır.

İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişafının iqtisadi vasitələrlə dəstəklənməsi ilk növbədə bitkiçilik və heyvandarlıq yarımkomplkeslərində məhsul istehsalının stimullaşdırılmasına, məhsuldarlığın yüksəlməsi də daxil olmaqla istehsalın intensivləşdirilməsinə yönəldilməlidir. Eyni zamanda cins mal-qara və elit toxum sortlarından istifadə edilməklə məhsul istehsalının artırılması, heyvandarlığın yem bazasının möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlər gerçəkləşdirilməlidir.

Nəzərə almaq lazımdır ki, qüvvəli və qarışıq yem istehsal edən müəssisələrin yaradılması və bu prosesin modernləşdirilməsi, istehsal edilən məhsulun rəqabətə davamlılığının yüksəldilməsində

əhəmiyyətli rol oynaya bilər. İAEƏ-də kənd təsərrüfatının texnoloji modernləşmə prosesinin gerçəkləşdirilməsi də innovasiya və rəqəmsal texnologiyalarla dəstəklənməlidir.

Bu zaman kənd təsərrüfatı əmtəə istehsalçılarının güzəştli şərtlərlə kreditləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu prosesin mühüm özəlliyi ondan ibarətdir ki, güzəştli şərtlərlə kreditləşmə ilk növbədə əmtəə istehsalçılarının müflisləşməsinin qarşısının alınmasında, dövriyyə vəsaitlərinə olan tələbatların ödənməsində geniş imkanlar yaradır. Fikrimizcə, İAEƏ-də kənd təsərrüfatının digər ərazilərlə müqayisədə differensial xarakter daşıyan dövlət büdcəsindən subsidiyalaşdma prosesləri də həyata keçirilməlidir. Differensial büdcə subsidiyaları həm İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişafına əlavə stimul verməklə yanaşı, həm də əhalinin həmin ərazilərdə dayanıqlı məskunlaşmasına da yüksək impulslar yarada bilər.

İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinin iqtisadi vasitələrində risklərin daha səmərli şəkildə sığortalanması da mühüm əhəmiyyət kəsb edir. Bu ilk növbədə təbii iqtisadi risklərin sığortalanması vasitəsilə həyata keçirilməlidir. Risklərin effektiv şəkildə sığortalanması İAEƏ-də xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılmasında mühüm strateji əhəmiyyət kəsb edə bilər.

Qeyd edilir ki, azad edilmiş ərazilərdə yaşıl enerji konsepsiyası əsasında bərpa-quruculuq və məskunlaşma prosesi aparılmalı, avtomatlaşdırılmış sistemlərin tətbiq edilməsi, 4-cü sənaye inqilabının inkişaf istiqamətləri nəzərə alınmalı və məskunlaşma prosesində gənclərə üstünlük verilməli, həmçinin ixtisaslaşdırılmış təlim-tədris, elmi-tədqiqat və təcrübi laboratoriyaların qurulması mühüm əhəmiyyət kəsb edə bilər.

İAEƏ-də infrastruktur sisteminin formalaşdırılması da həm kənd təsərrüfarında sahibkarlıq fəaliyyətinin inkişafına əlverişli şərait yaradır, həm də ərazilərin sosial iqtisadi inkişafının sürətləndirilməsinin mühüm prioriteti kimi çıxış edir. Nəzərə almaq lazımdır ki, istehsal infrastrukturları məhsulların daşınması ilə bağlı logistik imkanların yaradılmasına, bazar infrastrukturları məhsulların saxlanması və reallaşdırılmasına, sosial infrastrukturlar isə əhalinin

həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bu baxımdan İAEƏ-də kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin iqtisadi vasitələrlə dəstəklənməsi mexanizmdə dağıdılmış infrastruktur sistemlərinin bərpasına məqsədli investisiyaların yönəldilməsi, həmçinin xarici investisilayarın cəlb edilməsi də mühüm əhəmiyyətə malidkir.

İAEƏ-də kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinin baza prinsipini dayanıqlı məskunlaşma və infrastruktur təminatının yaxşılaşdırılması təşkil edir. Xüsusilə diqqət mərkəzində saxlanılmalıdır ki, həmin əlaqələr tamamilə dağıdıldığından dayanıqlı məskunlaşma prosesslsərinin səmərəli şəkildə gerçəkləşdirilməsi məqsədilə informasiya-kommunikasiya və rəqəmsal texnologiyaların imkanlarından istifadə etməklə yaşayış məntəqələrinin bərpasına daha çox üstünlük verilsin. Prosesin sürətləndirilməsi məqsədilə nəqliyyat sisteminin inkişafına da xüsusi diqqət yetirilməlidir.

Hesab edilir ki, tədqiq edilən ərazilərdə aqrar əmtəə istehsalçıları ilə emal müəssisələri arasında reinteqrasiya münasisbətlərinin formalaşdırılması aşağıdakıları şərtləndirə bilər:

- aqrar sahənin iqtisadi dayanıqlığının möhkəmləndirilməsini;
- İAEƏ-i digər ərazilərlə səmərəli şəkildə reinteqrasiyasını;
- müxtəlif təsərrüfat subyektlərinin gəlirlərinin artırılmasını;
- yeni iş yerlərinin açılmasını;

Tədqiqatda əhalinin məskunlaşması üçün infrastrukturların, xüsusən su, enerji, telekommunikasiya, rabitə, mənzil, nəqliyyat və s. formalaşdırılması amilləri təhlil edilir, təkliflər verilir. İşin sonunda inteqrasiya münasibətlərinin formalaşdırılması prioritetləri verilir.

Tədqiqat materiallarından çıxış edərək aşağıdakı **nəticələri, yeni elmi yanaşmaları, təklif və tövsiyələri** aşağıdakı kimi xülasə etmək olar:

1. Aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi həm makroiqtisadi və həm də mikroiqtisadi baxımdan mühüm strateji əhəmiyyətə malikdir. Aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsinin makroiqtisadi baxımdan strateji əhəmiyyəti ərzaq təhlükəsizliyinin təmin edilməsi, milli iqtisadiyyatda idxalın əvəz edilməsi və eləcə də milli iqtisadiyyatın ixracyönümlülüyünün

artırılması və ən nəhayət, dövlət büdcəsinə qeyri-neft sektorunun inkişafı hesabına alternativ mənbələrdən əlavə vəsait daxil olması ilə sıx bağlıdır. Aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsinin mikroiqtisadi baxımından əhəmiyyəti kənd əhalisinin məşğulluğunun təmin edilməsi və gəlirlərinin artırılması, kənd landşaftlarının inkişafı, ərzaq bazarlarında qiymətlərin səviyyəsinin stabilləşdirilməsi, emal sənayesinin xammal bazasının artırılması, ekoloji təmiz məhsul istehsalının artırılması ilə sıx əlaqədardır.

2. İAEƏ-də aqrar sahədə sahibkarlığın inkişafının özünəməxsus səciyyəvi cəhətləri vardır ki, bütün bunlar da ilk növbədə kənd təsərrüfatının özəllikləri ilə sıx bağlıdır:

- İAEƏ-də resursların çoxunun əsas istehsal xarakterli olması;
- təbii-iqlim şəraitindən asılılığı;
- sahənin risklərə adekvat reaksiya göstərmək iqtidarında olmaması;
- kənd təsərrüfatı məhsullarının tez xarab olması baxımından (texniki məhsullar istisna olmaqla) daşımağa adekvat olmaması;
- iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüftında bütövlükdə gəlirlərin səviyyəsinin aşağı olması;
- kənd təsərrüfatı məhsullarının qiymətləri ilə sənaye məhsullarının qiyməti arasında disparitetin mövcudluluğu.

3. Ölkəmizdə son dövrlərdə qeyri-neft-qaz sahələrinin tərkibində ixracda böyük paya malik olan kənd təsərrüfatı və ərzaq məhsulları üzrə kifayət qədər yüksək aşkar rəqabət üstünlükləri mövcuddur. Bu məhsullara xurma, fındıq, pomidor, pambıq lifi və ipliyi, nar şirəsi, alma və s. aiddir. Ən böyük rəqabət üstünlükləri xurma və fındıq üzrə qeyd olunmuşdur. Adı çəkilən məhsulların rəqabət üstünlüklərinin yüksək olması həmin məhsulların becərilməsi üzrə təbii iqlim şəraitinin əlverişliliyi və həmin məhsulların ölkə üzrə ixracının qlobal ixracdakı payının böyüklüyü ilə əlaqədardır. Təsadüfi deyildir ki, təzə xurma üzrə dünya ixracının 20%-i, qabığı təmizlənmiş meşə fındığı ixraının 4,4%-i Azərbaycanın payına düşür.

4. İAEƏ-də əmlak və infrastruktur sistemi demək olar ki, tamamilə dağıdıldığından yox dərəcəsindədir. Bu ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün ilk növbədə infrastruktur sisteminin bərpasına kəskin ehtiyac vardır. Nəzərə almaq lazımdır ki,

İAEƏ-də məhz infrastruktur sisteminin dağılması rayonlararası təsərrüfat əlaqələrinin kəsilməsinə gətirib çıxarmışdır. Eyni zamanda, infrasturktur sisteminin yoxluğu vəziyyətin tam mənası ilə nəzarətdən çıxmasına gətirib çıxarmışdır. Lakin bütün bunlarla yanaşı göstərilən ərazilərin özünəməxsus üstünlükləri də mövcuddur.

5. Azad edilmiş ərazilərdə kənd təsərrüfatına yararlı torpaqların 207 min hektarı (30,4%-i) əkinçilikdə, 54,7 min hektarı (8%-i) çoxillik əkmələr altında, 380 min hektardan çoxu (55,9%-i) heyvandarlığın inkişafında xüsusi əhəmiyyətə malik örüş otlaq sahəsi kimi istifadə oluna bilərdi. Xüsusilə Dağlıq Qarabağa bitişik olan rayonların iqtisadiyyatında, o cümlədən Ağdam, Füzuli və Cəbrayıl rayonun iqtisadiyyatında üzümçülüyün əhəmiyyətli rolu oynaması və eləcə də çoxillik əkmələrin becərilməsi mahiyyət etibarilə bu sahənin üstünlüklərindən yararlanmağa imkan verə bilərdi.

6. 4-cü sənaye inqilabının yaratdığı çağırışlar, müasir əmək bazarının tələbləri və Dünya İqtisadi Formunun proqnozları nəzərə alaraq yeni nəsil rəqəmsal texnologiyaların tətbiq edilməsi, rəqabətqabiliyyətli sənayenin yaradılması, davamlı və dayanıqlı inkişafı dəstəkləmək məqsədi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq məskunlaşma prosesini həyata keçirmək, İAEƏ-də sağlam və müasir nəslin formalaşdırılması istiqamətində gənc ailələrin və gənclərin qayıdışına dəstək vermək üçün xüsusi dövlət proqramlarının hazırlanmasına ciddi ehtiyac vardır;

7. 30 illik işğal dövrü, təsərrüfat sahələrinin strukturunun dəyişlməsi və peşələr üçün lazım olan yeni bacarıqları təmin etmək məqsədi ilə məskunlaşacaq əmək qabiliyyətli əhalinin yeni texnologiyalardan istifadə etmək və digər aqrar sahənin müasir tələblərinin təmin edilməsi üçün ixtisaslaşdırılmış təlim-tədris mərkəzlərinin qurulmasını məqbul hesab etmək olar. Məlum olduğu kimi, dünyanın müxtəlif universtitetlərində nüfuzlu Azərbaycanlı alim və tədqiqatçılar çalışırlar. Həmin şəxsləri də cəlb edərək, Qarabağ və Şərqi Zəngəzur regionunu beyin mərkəzinə çevirəcək, mövcud və müasir məsələlərin həllinə istiqamətlənmiş elmi-tədqiqat mərkəzlərinin yaradılmasına xüsusi diqqət yetirilməlidir. Bununla yanaşı İAEƏ-də sənayenin formalaşdırılması, rəqabətqabiliyyətli

məhsulların istehsalı edilməsi, ölkəmizin ərzaq təhlükəsiziliyinin təmin edilməsi məqsədi ilə müxtəlif istiqamətli təcrübi laboratoriyaların yaradılması olduqca faydalı hesab edilir.

8. Tədqiq edilən ərazilərdə yeni islahatların aparılması və sahibkarlığın formalaşması ilə bağlı mümkün variantları aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

– 1995-ci ildən etibarən Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatlar təcrübəsini nəzərə almaq məqbul hesab edilir. Bu prosesin səciyyəvi cəhəti ondan ibarətdir ki, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında kənddə yaşayan bütün ev təsərrüfatları əsasında torpaq resursları bərabər bölünməsi olduqca vacibdir. Adıçəkilən islahatlar təcrübəsinin xarakterik cəhəti və üstün məqamlarından biri ondan ibarətdir ki, bu sahədə mövcud təcrübə 1995-ci ildən etibarən reallaşdırılmışdır və o özünün istər müsbət və istərsə də mənfi cəhətlərini aşkarlamağa imkan verir. Aqrar islahatlar təcrübəsinin özünəməxsus destruktiv zərərlərindən biri əkin sahələrinin kiçik hissələrə parçalanması və bütövlükdə iri və orta əmtəəlik təsərrüfatlarının yaradılmasında problemlərin mövcudluğu ilə sıx bağlıdır;

– kooperativlərin yaradılması. Bu prosesin səciyyəvi cəhəti ondan ibarətdir ki, torpaqların əhali üzrə adambaşına payları müəyyən edilir və sonra həmin paylar kooperativlər əsasında formalaşır. Bu prosesin üstün cəhətlərindən biri torpaqların parçalanmasının qarşısının alınması və iri əmtəəlik təsərrüfatlarının yaradılması ilə bağlıdır. Ən mühüm çatışmazlıqlarından biri isə bu sahədə respublikamızda qanunvericilik aktları qəbul edilsə də, prosesin ləng həyata keçirilməsidir.

9. İAEƏ-də kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişafı ilə bağlı iqtisadi amilləri ön plana çəkərkən ilk növbədə sahənin ixtisaslaşma xüsusiyyətlərini nəzərə almaq vacibdir. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq qeyd edilmiş ərazilərdə kənd təsərrüfatında sahibkarlığın formalaşdırılmasının iqtisadi amillərinin hərəkətə gətirməzdən ilk növbədə hər bir rayon üzrə zəruri bərpa-quruculuq və məskunlaşma tədbirlərinin həyata keçirilməsi vacibdir.

Hesab edirik ki, göstərilən ərazilərdə əhalinin böyük qayıdaşının təmin edilməsi ilə bağlı zəruri ağıllı icma və ağıllı kənd lahiyələrin gerçəkləşdirilməsi sahibkarlığın inkişafına imkan verə bilər.

10. İAEƏ-də kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişafının iqtisadi amilləri ilk növbədə stimullaşdırıcı xarakterə malik olmaqla, bütövlükdə həm yeni dəyər yaradılmasına əlverişli şərait yaratmalı və həm də kənd təsərrüfatı əmtəə istehsalçılarının fəaliyyət göstərmələrini stimullaşdırmalıdır. Bu baxımdan iqtisadiyyatın diversifikasiyası prosesi təmin edilməklə yanaşı, qeyri-neft sektorunun inkişaf etdirilməsində kənd təsərrüfatının rolunun artırılması hədəflənməlidir. İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişafının iqtisadi amillərlə dəstəklənməsi ilk növbədə aşağıdakı istiqamətlərdə gerçəkləşdirilməlidir:

- heyvandarlıq və bitkiçilik yarımkomplekslərində sahibkarlığın inkişafına iqtisadi alətlərlə dəstək verilməsi;
- kənd təsərrüfatının texniki və texnoloji modernləşmə prosesinə əlverişli şərait yaradılması məqsədi ilə zəruri dəstək tədbirlərinin gerçəkləşdirilməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının elmi təminatının formalaşdırılması;
- iqtisadi mexanizmin mühüm tərkib hissəsi kimi ərazilərdə kreditləşdirmə və sığortalanma fəaliyyətinə dövlət dəstəyinin gerçəkləşdirilməsi və risklərin sığortalanmasını təmin edilməsi üçün normativ bazanın təkmilləşdirmə tədbirləri həyata keçirilməsi;
- emal sənayesinin inkişaf etdirilməsi üçün zəruri dəstək tədbirlərinin, eləcə də dövlət-özəl tərəfdaşlıq sistemlərinin tətbiq edilməsi;
- İAEƏ-də infrastruktur sisteminin inkişafına yardım göstərilməsi.

11. Kənd təsərrüfatında yem istehsalının, xüsusən qüvvəli və qarışıq yem istehsalının həyata keçirilməsinə istiqamətlənmiş tədbirlər gerçəkləşdirməklə həmin tədbirlərin reallaşdırılmasında dövlət büdcəsindən vəsaitlərin ödənilməsi, subsidiyaların həcminin demək olar ki, digər rayonlarla müqayisədə 50-60% artırılması mahiyyət etibarilə kənd təsərrüfatı əmtəə istehsalçılarının maraqlarını daha da artıra bilər. Bundan əlavə, kənd təsərrüfatına yararlı

torpaqların əmtəə istehsalçıları arasında paylanması prosesinə xüsusi diqqət yetirilməlidir ki, bu da növbəli əkin sisteminin tətbiqi istiqamətində mühüm əhəmiyyətə malik ola bilər. İstixana komplekslərində ən çox vəsait ilk növbədə qaza olan tələbatın ödənilməsi və eləcə də qazın qiyməti ilə bağlı proseslər təşkil edir. Bu baxımdan kənd təsərrüfatı əmtəə istehsalçılarının İAEƏ-də müəyyən zaman kəsiyində 10 il ərzində qaza olan ehtiyaclarının ödənilməsi ilə bağlı subsidiyaların verilməsi prosesin genişləndirilməsinə əlverişli şərait yaratmaqda əhəmiyyətli rol oynaya bilər. İstixana komplekslərinin formalaşdırılması mahiyyət etibarilə ixraca yönəlik kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında əhəmiyyətli rol oynaya bilər və bu da ixrac sektoru hesabına dövlət büdcəsinə daxilolmaların həcminin artırılmasına gətirib çıxara bilər. İAEƏ-də, o cümlədən Füzuli, Cəbrayıl və Ağdam rayonlarında taxılçılığın inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində yüksək məhsuldarlığa malik olan elit toxum sortlarından istifadə edilməsi daha məqsədəuyğun hesab oluna bilər. Qarabağ iqtisadi rayonunda üzümçülüyün inkişaf ilə bağlı uzunmüddətli ənənələrin mövcud olduğunu nəzərə alaraq üzüm plantasiyalarının becərilməsinə üstünlük verilməlidir ki, bu da əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayar.

12. Heyvandarlıq məhsulları istehsalının iqtisadi mexanizmlərl vasitəsilə dəstəklənməsi mahiyyət etibarilə bu sahənin inkişafına əlverişli şərait yaratmaqla əhalinin heyvandarlıq məhsullarına olan tələbatlarının ödənilməsinə əlverişli imkanlar aça bilər. Şərqi Zəngəzur iqtisadi rayonlarının meşə massivləri və dağlıq ərazilər olmasını nəzərə alaraq həmin ərazilərdə heyvandarlıq məhsullarının istehsalı kifayət qədər geniş imkanlar vəd edir.

13. Fikrimizcə, tədqiqat aparılan ərazilərdə kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri, o cümlədən emal müəssisələri, xidmət qurumları, infrastruktur sistemləri və təchizat qurumları arasında reinteqrasiya münasibətlərinin formalaşdırılmasının prioritetlərinə aşağıdakıları şamil etmək olar:

- bu ərazilərdə fəaliyyət göstərən kənd təsərrüfatı əmtəə istehsalçılarının sabit gəlirlərə malik olmaq imkanlarının təmin edilməsi;

- inteqrasiya prosesinə daxil olan bir sıra müəssisələrin, o cümlədən kənd təsərrüfatı əmtəə istehsalçılarının, emal müəssisələrinin, tədarük qurumlarının və digərlərinin maraqlarının səmərəli şəkildə koordinasiya edilməsi;
- bu ərazilərdə kənd təsərrüfatında davamlı inkişafı təmin etmək məqsədilə məhsul istehsalına çəkilən xərclərin aşağı salınması, subsidiya və dotasiya tədbirlərinin gerçəkləşdirilməsi;
- ilin bütün fəsillərində kənd təsərrüfatı istehsalçılarının davamlı məşğulluğunu, gəlirlərini təmin etmək məqsədi ilə istixana və xidmət müəssisələrinin yaradılması;
- araşdırılan ərazilərdə kənd təsərrüfatı istehsalının biznes və investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətində dövlət səviyyəsində zəruri proqramların gerçəkləşdirilməsi;
- göstərilən ərazilərdə aqrobiznes şəbəkəsinin formalaşdırılması və bütün bunların mahiyyət etibarilə kənd təsərrüfatı məhsullarının satışı ilə bağlı şəbəkələrin genişləndirilməsinə istiqamətlənməsi;
- kənd təsərrüfatı istehsalçılarının bütövlükdə bazar konyunkturunda baş verən dəyişikliklərlə bağlı informasiya bazasına geniş çıxış imkanlarının təmin edilməsi.

14. İAEƏ-də əhalinin dayanıqlı məskunlaşması prosesini gerçəkləşdirmək məqsədilə vergi qaydalarının təkmilləşdirilməsi də vacib şərtlərdən ola bilər. Fikrimizcə, bu məqsədlə həmin ərazilərdə yaşayan və məşğulluğu təmin edilən əhali kateqoriyalarına vergi tətilləri tətbiq edilməlidir. Məhz belə bir şəraitdə dayanıqlı məskunlaşma prosesi təmin etmək vergi qanunvericiliyinin təkmilləşdirilməsi, xüsusilə həmin ərazilərdə uzun müddətli vergi tətillərinin tətbiq edilməsi mahiyyət etibarilə gizli iqtisadiyyatın sərhədlərinin məhdudlaşdırılmasında önəmli rol oynaya və əhalinin qeyri-rəsmi iqtisadi münasibətlər sisteminə daxil olmasına imkanını azalda bilər.

15. İAEƏ-də reinteqrasiya münasibətlərinin formalaşması bu ərazidə məskunlaşan əhalinin məskunlaşma imkanlarının genişləndirilməsi ilə bağlı iqtisadi və sosial üstünlüklərinə aşağıdakıları şamil etmək olar:
- göstərilən ərazilərdə iri əmtəəlik təsərrüfatlarının yaradılması hesabına məhsul istehsalına çəkilən xərclərin aşağı salınması ilə

bağlı istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə nail olunması;

- bu ərazilərdə iri əmtəəlik təsərrüfatlarının yaradılması, emal müəssisələrinin, satış və təchizat şəbəkələrinin formalaşdırılması ilə əlaqədar iri kənd təsərrüfatı klasterləri yaradıla bilər. Bu hesabla resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsinə, istehsal, kapital və əmək resurslarının həmin ərazilərdə bərabər bölüşdürülməsinə nail olunması;
- həmin ərazilərdə yeni satış şəbəkələrinin yaradılması hesabına istehsalçıların bazara daxilolma imkanlarının genişləndirilməsi;
- kənd təsərrüfatında geniş təkrar istehsal prosesinin səmərəli şəkildə reallaşdırılması ilə bağlı tətbiq edilən vergilər sistemində tətillərinin verilməsi;
- göstərilən ərazilərdə səmərəli istehsal və xidmət infrastrukturu sistemlərinin yaradılması hesabına əmtəə istehsalçılarının daxili və xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi və s.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin həmmüəllifsiz dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Müasir şəraitdə sahibkarliq fəaliyyətinin inkişafının bəzi məsələləri. // – Bakı: “Audit” jurnalı, № 3, 2021, – s. 63-72.
2. İşğaldan azad edilmiş ərazilərdə aqrar sahədə sahibkarlığın inkişafının səciyyəvi cəhətləri. // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnalı, № 4, 2021, – s. 212-219.
3. İşğaldan azad edilmiş ərazilərdə (İAEƏ) aqrar sahibkarlığın formalaşdırılması. // – Bakı: “Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial iqtisadi inkişafın əsas istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfrans, 2021, – s. 332-334.
4. Formation of agrarian entrepreneurship in the liberated territories of Azerbaijan. // Polşa, Opole: Improving living standards In a globalized world: Opportunities and challenges. 2021. – p.125-137.

5. İşğaldan azad edilmiş ərazilərdə torpaq resurslarının qiymətləndirilməsi və səciyyəvi cəhətləri. // – Bakı: “Audit” jurnalı, № 2, 2022, – s. 92-98.

6. İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun yaradılması istiqamətləri. // Bakı: “Kooperasiya” elmi-praktiki jurnalı, № 2022, – s. 133-141.

7. Ways of formation of the integration process in the liberated territories of Azerbaijan. // – Dnipro, Ukraine: 1st International Scientific and Practical Iinternet Conference, 2022. 7-8 aprel. – p.32-34.

8. İşğaldan azad edilmiş ərazilərdə su ehtiyyat-larının qiymətləndirilməsi. // – Bakı: “Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi” mövzusunda beynəlxalq elmi-praktiki konfrans. 5 may, 2022-ci il. – s. 402- 403.

9. Formation of the food industry in the liberated territories of Azerbaijan. // – Russia, "Вестник Бурятского госуниверситета. Экономика и менеджмент", 2022. № 3. – p. 10-19.

10. Territories liberated from occupation of Azerbaijan: strengths, weaknesses, threats and opportunities. // – Canada, Toronto: Innovative scientific research Proceedings of the II International Scientific and Practical Conference. 26-27 January 2023. – p.14-16.

11. Post-konflikt dövründə ərazilərdə iqtisadiyyatın bərpasının və inkişafının bəzi istiqamətləri. “İqtisadi artım və ictimai rifah” elmi jurnalı, Bakı. № 3, 2023 s.127-133.



Dissertasiyanın müdafiəsi 27 dekabr 2023-cü il tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 27 noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.11.2023

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 47518 işarə

Tiraj: 100